# Benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazası yaradılır

**Martın 3-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin yaz sessiyasında növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda 7 məsələ müzakirə olunub.**



Komitənin sədri Azər Əmiraslanov məlumat verib ki, gündəliyin ilk məsələsi "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsidir. Bildirilib ki, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 22 dekabr 2023-cü il tarixli qanunla mühasibat uçotunu elektron formada aparmalı olan mühasibat uçotu subyektlərinin dairəsi müəyyən edilmişdir. Təklif olunan qanun layihəsinə əsasən büdcə təşkilatlarında da mühasibat uçotunun elektron formada aparılması və bunun təmin olunması üçün "e-mühasibat" informasiya sisteminin tətbiqi təklif olunur. Qanun layihəsi "e-mühasibat" informasiya sisteminin təmin etməli olduğu məqsədləri müəyyənləşdirir. Belə ki, "e-mühasibat" informasiya sistemi mühasibat uçotunu elektron formada aparacaq mühasibat uçotu subyektləri üçün maliyyə hesabatlarının elektron qaydada təqdim edilməsi imkanını yaradır.

Qanun layihəsi üçüncü oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitə sədri gündəliyin ikinci məsələsi olan "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirilib ki, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununun 4.1-ci maddəsinə əsasən lisenziyaların və icazələrin alınmasından azadolma halları müvafiq sahəni tənzimləyən Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmalıdır. Bu qanun layihəsi müvafiq qurumun ("Azərbaycan Dəmir Yolları" QSC və onun strukturuna daxil olan qurumların) fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün zəruri olan lisenziya və icazələrin alınmasından azad olunmasını nəzərdə tutur.

Sonra iclasda Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın 8.4.1-ci yarımbəndində benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması üçün normativ hüquqi əsasların formalaşdırılması öz əksini tapıb. Bu dəyişikliklər də həmin fəaliyyət planından irəli gəlir.

İclasda iştirak edən Maliyyə Monitorinqi Xidmətinin Hüquq Departamentinin direktoru Mehman Əliyev qanun layihəsi barədə məlumat verib. O bildirib ki, təklif olunan qanun layihəsi Milli Fəaliyyət Planının müvafiq tələbinə uyğun olaraq, beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. Layihənin qəbul edilməsi ilə hüquqi şəxslərin benefisiar mülkiyyətçilərinə dair dürüst, dəqiq, yenilənmiş məlumatları əks etdirən mərkəzləşdirilmiş məlumat bazasının formalaşdırılması təmin ediləcəkdir. Bu, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin effektivliyinin artmasına xidmət edəcəkdir.

Müzakirə zamanı komitə üzvləri Zaur Şükürov, Vüqar Bayramov, Əli Məsimli, Aydın Hüseynov və Məşhur Məmmədov layihənin əhəmiyyətindən danışıblar, qeyd və təkliflərini diqqətə çatdırıblar.

Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi (birinci oxunuş) də müzakirə olunub. Layihə barədə məlumat verən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əməkdaşı Elməddin Quliyev bildirib ki, qanun layihəsinin məqsədi keyfiyyətə nəzarət sahəsində rəqəmsallaşmanın həyata keçirilməsi məqsədilə vahid elektron informasiya sisteminin hüquqi bazasının yaradılmasıdır. Bu sahədə elektron xidmətlərin tətbiqi yolu ilə prosedurların optimallaşdırılması, ölçmə, texniki tənzimləmə və uyğunluğun qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və xidmətlərin şəffaflığının artırılması nəzərdə tutulur.

Qanun layihəsi birinci oxunuşda parlamentin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi müzakirə olunub. Komitə sədri Azər Əmiraslanov bildirib ki, qanun layihəsi məhkəmə və digər orqanların qərarlarının icrası sahəsindəki aparılan ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsi məqsədilə hazırlanıb. Layihəyə əsasən, "İcra məmurları haqqında" qanunda icra məmurunun icra sənədləri üzrə ödənilməli olan pul vəsaitlərinin, icra ödənişlərinin, habelə icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin ödənilməsini yalnız nağdsız qaydada həyata keçirilməsi ilə bağlı vəzifəsi təsbit olunur. Eyni zamanda "İcra haqqında" qanuna "İcra xidmətinin depozit hesabı" adlı maddənin əlavə edilməsi təklif olunur. Bu maddədə qeyd olunur ki, icra icraatı çərçivəsində pul vəsaitlərinin ödənilməsi yalnız nağdsız qaydada icra xidmətinin depozit hesabları vasitəsilə həyata keçirilir. Bununla əlaqədar İnzibati Xətalar Məcəlləsinə icra icraatı üzrə ödənişlərin nağd qaydada həyata keçirilməsinə görə inzibati məsuliyyəti müəyyən edən yeni maddə əlavə olunur.

Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmaq haqqında Azərbaycan Respublikasının qanun layihəsi müzakirəyə çıxarılıb. Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan ötən ilin dekabrında İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) sammiti zamanı D-8-ə üzv qəbul olunub və qanun layihəsi bu təşkilatın nizamnaməsinə qoşulmaq barədədir.

Qanun layihəsi barədə məlumat verən komitə üzvü Zaur Şükürov ölkəmizin bu təşkilata üzv qəbul edilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycanın D-8-ə qoşulması iqtisadi və ticarət əlaqələrinin inkişafına yeni imkanlar açır. Orta dəhliz marşrutu üzərində yerləşən Azərbaycan, Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə D-8 ölkələri üçün mühüm tranzit mərkəzinə çevrilir.

Azərbaycan D-8 çərçivəsində iqtisadi inteqrasiya layihələrində iştirak etməklə yanaşı, təşkilatın əsas prinsiplərinə töhfə verməyə davam edəcəkdir. Azərbaycanın təşkilata üzvlüyü beynəlxalq ticarət və iqtisadi mövqeyini daha da möhkəmləndirərək regional və qlobal əməkdaşlıq perspektivlərini genişləndirir.

Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Gündəliyin sonuncu - yeddinci məsələsi olan "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə danışan komitə sədri Azər Əmiraslanov bildirib ki, layihə uyğunlaşdırma xarakteri daşıyır.

Qanun layihəsi barədə məlumat verən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əməkdaşı Vaqif Ataşov bildirib ki, məsələ Rəqabət Məcəlləsinin qüvvəyə minməsi ilə bağlıdır. Bununla əlaqədar olaraq, Məcəllədə istifadə olunan anlayışlar digər qanunlarda da öz əksini tapacaqdır.

Sonra qanun layihəsi parlamentin plenar iclasına tövsiyə olunub. Bununla da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası başa çatıb.

İclasda komitə üzvləri Ziyad Səmədzadə, Heydər Əsədov, Rövşən Muradov, Tahir Mirkişili, Əlibala Məhərrəmzadə, Müşfiq Cəfərov və digər rəsmi şəxslər də iştirak ediblər.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 4 mart (№48).- S.3.